BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2008*

# BEYNƏLXALQ İSLAM TƏŞKİLATLARININ YARANMASI İSTİQAMƏTİNDƏ ATILAN ADDIMLAR

S.Z.QULİYEVA
*Bakı Dövlət Universiteti*

XX əsrin ortalarından başlayaraq dünyanın müxtəlif ölkələrində əhalinin dini inamının və dini hərəkatların artması müşahidə olunur. Dini xarakterli beynəlxalq təşkilatların, fondların, hərəkat, partiya və təriqətlərin sayı artır. Bir sıra münaqişələr isə açıq-aşkar dini xarakter daşıyır. Bəzi təhlilçilər bunlara əsaslanaraq dini amilin beynəlxalq münasibətlərdə əhəmiyyətli rolunu qeyd edirlər (4; 6, 62-89; 11; 12; 15). Bu məqalədə islam cəmiyyətlərinə məxsus beynəlxalq təşkilatların yaranma səbəblərini araşdırmaq nəzərdə tutulur.

İslam dini XXI əsrə maddi və mənəvi mədəniyyət, əqidə və siyasi təcrübə sisteminə malik insan sivilizasiyasının istiqaməti kimi qədəm qoyub. İslam – milyonlarla mömin, partiya, hərəkat və beynəlxalq təşkilatlar deməkdir. Bütün müsəlmanlarda müasir dünyada vahid inam, adətlər, tarixi bağlılıq, ümumi maraqlarla birləşdikləri insan cəmiyyətinə mənsubluq barədə kifayət qədər sarsılmaz təsəvvür var.

Dini və dünyəvi hakimiyyət islam nəzəriyyəsində və qismən də təcrübədə ayrılmamışdır. İslamın tarixi ictimai rolunu anlamaq üçün dünyəvi və dini hakimiyyətin qarşılıqlı münasibəti problemini araşdırmaq vacibdir.

Şərq ölkələrində, əsasən dini təşkilatların əhaliyə təsir və idarəetmə mexanizmi dünyəvi təşkilatların rolundan daha əhəmiyyətli və effektli olur. Bu səbəbdən də, müsəlmanların dini cəmiyyətinin vahid siyasi xətdə birləşməsi şüarı dəfələrlə səslənib və xüsusi liderlik iddiasında olan nüfuzlu müsəlman dövlətləri tərəfindən müdafiə olunmuşdu. Bu fikrin ən ibtidai forması kimi bütün müsəlmanların Kəbəyə üz tutması səsləndirilir.

1963-cü ildə Böyük Britaniyada müsəlman ölkələrindən olan alimlərin də iştirak etdiyi İslam dini və beynəlxalq münasibətlərə həsr olunmuş konfransda isə deyilmişdi ki, İslam dini müsəlman dövlətlərinin beynəlxalq münasibətlərdə fəaliyyətlərinə və üstünlüklərinə məhdud təsir göstərir (6).

Lakin baş verən hadisələr bunun əksini göstərdi. İslamın coşğun dirçəlişi və artıq bütün müsəlman ölkələrində müstəqil siyasi amilə çevrilməsi hamı tərəfindən qəbul olunmuş müddəa yaratdı. Bir çox müsəlman ölkələrində İslam dininin rolunun artması lokal, regional və ümumdünya miqyaslı bir sıra şərtlərlə bağlıdır (XX əsrin 50–60-cı illərində siyasi sistemlərdəki böhranlar, milli əsaslı beynəlxalq müsəlman təşkilatlarının uğursuzluğu, xarici siyasətdə islam həmrəyliyinə əsaslanan Səudiyyə Ərəbistanı, Küveyt, Liviya və digər dövlətlərin maliyyə

qüdrətinin və siyasi təsirinin artması və s.).

Beynəlxalq münasibətlər sisteminin qloballaşma mərhələsinə keçid üçün müsəlman dövlətləri islam dəyərlərini qoruyaraq fərqli yanaşma mexanizmi hazırlamağa can atırlar. Müsəlman ölkələrinin beynəlxalq məsələlərə böyük təsir göstərmək, həmçinin bir sıra islam prinsiplərinin qarşılıqlı əlaqələrə daxil edilməsi cəhdləri, hələ ki, elə bir əməli nəticə verməmişdir. Qloballaşmanın getdiyi bu dövrdə müsəlman ölkələrinin birliyi, həmrəyliyi islam qloballaşması hesab oluna bilər. "İnsan haqları haqqında İslam bəyannaməsi" (XİN-nin 1990-cı il Qahirə konfransında elan olunmuşdur), İSESCO (İslam ölkələrinin elm, təhsil və mədəniyyət təşkilatı) və digər göstəricilər buna ilk addımdır. Eyni zamanda, bu həm də İslamdan ayrı düşmüş ölkələrin İslama qayıtması məqsədidir. Bir sıra tədqiqatçılar isə islam həmrəyliyini ən kəskin və təsirli antiqloballaşma ideologiyası kimi qiymətləndirirlər (4; 5, 70-86; 12).

XIX əsr – XX əsrin 20-ci illəri İslam dininin durğunluq dövrü kimi qiymətləndirilir. Həmin dövrdə dünya xəritəsində cəmi üç islam dövləti var idi: sultanları həm də xəlifə funksiyası daşıyan Osmanlı imperiyası, İran və Əfqanistan. Bunlardan əlavə, Rusiya imperiyasına tabe olan Buxara əmirliyi və Xivə xanlığı da var idi. Digər müsəlmanların isə heç bir siyasi strukturu mövcud deyildi, bu səbəbdən də, İslamın ancaq məişət səviyyəsində mövcud olduğu qəbul olunurdu.

Avropada kapitalist münasibətlərinin inkişafı Şərq üsul-idarəsinə, dini görüşlərə təzyiq göstərirdi. XIX əsrin II yarısından başlayaraq həm də dünyəvi təhsil almış müsəlman liderləri bu vəziyyətdən çıxış yolu kimi İslam dinində təxirəsalınmaz islahatların aparılmasına, Avropa yeniliklərinin tətbiq edilməsinə ehtiyac duyurdular. Onlar belə hesab edirdilər ki, əks halda İslam dünyasının dağılması təhlükəsi var. Bu fikirlər hər yerdə razılıqla qarşılanırdı və islahatların zəruriliyi göstərilirdi.

XIX əsrin sonundan başlayaraq müsəlman dünyasında İslam dinində islahatlar aparılması hərəkatı geniş vüsət aldı. XIX əsrin ortalarından isə "müsəlman reformasiyası" – qədim təlimin dəyişən dünyaya uyğunlaşması başladı. Reformasiya ilahiyyatda heç bir dəyişiklik etmədi. Şəriət qaydaları, borcalma məsələləri yenidən müzakirə edildi. Bunların sayəsində bank sisteminin və kapitalist sahibkarlığının formalaşmasına imkan yarandı. Bu prosesin gedişində bütün müsəlmanların birliyi barədə İslamın yeni ənənəvi müddəaları əldə olundu.

Lakin XX əsr İslam aləminə sürətli yüksəliş gətirdi. Atlantikadan Avstraliyaya qədər İslam dini və ideologiyası hakim olan onlarla dövlət meydana çıxdı. Həmçinin bir çox dövlətdə siyasi fəaliyyət göstərən fəal müsəlman icmaları mövcud idi. Ən əsası isə XX əsrin əvvəllərində ictimai təfəkkürdə dəyişikliklər baş verdi. Əsası Camal əd-din Əfqani, Məhəmməd Abdo, İsmayıl bəy Qasprinski və digər islam fəlsəfi fikir mütəfəkkirləri tərəfindən qoyulan bütün müsəlmanların vahidliyində İslamın rolu, müsəlmanların həmrəyliyi – panislamizm müsəlman dünyasında yayılmağa və möhkəmlənməyə başladı. Eyni zamanda, inkişaf edən milliyyətçilik ideyaları da islam ictimai fikrinə əsaslanırdı. Tam halda milliyyətçiliyin təsiri XIX əsrin sonu – XX əsrin əvvəllərində müsəlman ictimai fikrində hiss olunurdu. Müsəlman dini-millətçi ideyaları milli-azadlıq hərəkatının inkişafına imkan yaradır (2; 7; 8; 11). Bu zaman müstəmləkəçilik əleyhinə çıxışlar tez-tez dini xarakter alırdı. Birinci dünya müharibəsi nəticəsində Osmanlı imperiyası dağıdıldı və onun ye-

rində Türkiyə, İraq, Suriya, Livan, İordaniya, Ərəb əmirlikləri kimi yeni dövlətlər yarandı. 1926-cı ildə Misir müstəqillik əldə etdi, Hindistan, İndoneziya və digər müsəlmanlar yaşayan ərazilərdə başlanan güclü azadlıq hərəkatları nəticəsində İkinci dünya müharibəsindən sonra yeni müstəqil dövlətlər meydana çıxdı. XX əsrin 60-cı illərində ingilislərin Ərəbistan və Malayziyadan getməsi ilə əksər İslam ölkələrində siyasi azadlıq prosesi başa çatdı.

Birinci dünya müharibəsindən sonrakı dövrdə bir sıra ölkələrdə baş verən inqilablar nəticəsində İslam dininin fəaliyyəti getdikcə məhdudlaşdırılırdı. İkinci dünya müharibəsindən sonra baş verən geniş demokratik hərəkatlar müsəlman adətlərində dəyişikliklərə və onların zəifləməsinə səbəb oldu. Dəyişikliklərin xarakteri müxtəlif sosial-siyasi şərtlərlə əlaqədar idi. Dəyişikliklər həm zamanın tələbinə uyğun olaraq müsəlman təfəkküründə, həm də siyasi, mədəni-məişət və digər sahələrin daha dərin qatlarında baş verirdi. Mədəni-məişət sistemində, hüquqi normalarda da islahatlar aparılırdı.

Osmanlı imperiyasının dağılması, eyni zamanda, İslama etiqad edən xalqları birləşmək üçün yeni mərkəzlər yaratmaq cəhdlərini həyata keçirməyə çağırırdı. Belə yeni müsəlman "qüvvə mərkəzləri" əsasən ərəb şərqində mövcud idi. Öz növbəsində, onların yaranması, həm də bu ərazidə baş verən siyasi proseslərlə bağlı idi. Atatürkün apardığı islahatlar, respublika idarə sisteminin yaranması Türkiyədə daha radikal dəyişikliklərə səbəb oldu. Digər Asiya və Afrika ölkələrinin isə müstəmləkə əsarətindən azad olması ilə bu ölkələrdə kapitalizm inkişaf etməyə başlayırdı.

Müsəlman xalqlarının müstəmləkə əsarətindən azad olması, sosializm sisteminin yaranması, kapitalist dünyasında böhranın dərinləşməsi islam ictimai fikir nümayəndələri qarşısında yeni problemlər qoymuşdu. Azadlıq əldə etmiş ölkələrdə inkişaf yolunun müəyyən edilməsi probleminin həlli genişlənirdi (1, 15).

Həm dini, həm də dünyəvi müsəlman ictimai xadimləri İslam ölkələri üçün vahid qəbul edilə bilən, kapitalizm və sosializmdən fərqlənən "üçüncü yol" adlanan və ənənəvi İslam dəyərlərinə əsaslanan inkişafın islam yolu – "İslamsayağı yeni iqtisadi qayda" haqqında tezislər irəli sürürlər. Dünyada baş verən texniki yeniliklərin tətbiqi ilə ənənəvi təsərrüfat münasibətlərinin yeniləşdirilməsi, müsəlman dövlətlərinin əməkdaşlığı, dünya dövlətləri arasında hüquq bərabərsizliyinə qarşı mübarizə və s. bu yolla həyata keçirilə bilərdi. Onun əsasında müxtəlif məsələlərdə bir-birindən fərqlənməyən, lakin ümumi sosial təbiəti olan "islam dövləti", "islam idarəçiliyi", "islam iqtisadiyyatı", "islam sosializmi" və digər konsepsiyalar yaradılır. Artıq daha böyük bir təşkilata ehtiyac vardı. Beynəlxalq təşkilat yaratmaq yolu ilə müsəlman dünyasının birləşdirilməsi ideyası Birinci dünya müharibəsindən sonra Fələstin din xadimləri arasında yarandı (10; 14).

İki dünya müharibəsi arasındakı dövrdə dini prinsiplər əsasında üç beynəlxalq birliyin yaranması bu istiqamətdə atılan ilk addımlar oldu. Bunlardan Məkkə konvensiyası (1924, iyul), Qahirə konvensiyası (1926, may), Qüds konvensiyası (1931) kimi beynəlxalq xarakter kəsb edən dini qurumları göstərmək olar. Bu hərəkatlar nəticəsində nəhəng Osmanlı imperiyasının dağılması ilə reallaşan şəraitdə üç ərəb dövləti siyasət meydanına çıxır. Eyni zamanda, islam həmrəyliyinə əsaslanan beynəl-

xalq islam hərəкatı yeкunlaşır.

Müsəlmanların siyasi birliyinin yaranması üçün hərəкatlardan birinin mərкəzi Ərəbistan yarımadasının çox hissəsini əhatə edən Səudiyyə Ərəbistanı кrallığı oldu, nüfuzlu dini universitet olan Əl-Əzhar Universitetinin yerləşdiyi Qahirə iкinci belə mərкəz oldu. Bu universitetin üləmalarının, həmçinin Səudiyyə Ərəbistanının кralı Əbdül Əzizin təкlifi ilə 1926-cı ilin mayında Misirin paytaxtında *Ümumdünya Müsəlman Konqresi* çağırıldı. Konfransda iştiraк edən 15 müsəlman dövlətinin nümayəndələri Səudiyyə Ərəbistanı кralının təşəbbüsü ilə *Ümumdünya İslam Konqresinin* (ÜİK) yarandığını elan etdilər (8). Konqres gözlənilən nəticəni vermədi. 1931-ci ilə qədər ÜİK təşкilat кimi tam formalaşdırılmamışdı. Həmin ildə Qüdsdə Fələstinin müftisi Amin əl-Hüseynin təкlifi ilə кeçirilən sessiyada isə əsas diqqət müsəlmanların ziyarətgahı Qüds (Yerusəlim) oldu. Həmçinin, Qüds forumunda İcraedici orqan – ÜİK-in daimi orqanı seçildi. Tam fəaliyyətə isə 1949-cu il Kəraçi кonfransından sonra başlanıldı.

Hələ Birinci dünya müharibəsindən sonra müsəlman dünyasında yaranan dövlətlərin milli höкumətləri daha çox siyasi müstəqilliк əldə etməк istəyirdilər. Misirin ingilispərəst siyasəti digər müsəlman dövlətləri tərəfindən yaxşı qarşılanmırdı, həmçinin sovet müsəlmanlarının кonqreslərdə iştiraк etməməsi də təsirli oldu.

Bu üç forumun heç biri ümummüsəlman hərəкatının inкişafı üçün həlledici əhəmiyyəti olmasa da, regional müsəlman birliyinin yaradılması hərəкatını zəiflətmədi. Bunu sonraкı cəhdlər də təsdiq etdi.

1935-ci ildə Parisdə yaşayan misirli vəкil və jurnalist olan siyasi mühacir Mahmud Səlim Cenevrədə ümummüsəlman qurultayı təşкil edə bildi. Forum bütün Avropadaкı müsəlman azlıqlarının öz işinə cəlb olunmasını əhəmiyyətli hesab etmişdi. Bununla da, Fələstin problemi ilə yanaşı gələcəк İKT-nin fəaliyyət istiqamətlərinin də təməli qoyulmuşdu. Həmçinin, 1954-cü ildə Səudiyyə Ərəbistanı, Misir və Paкistanın təşəbbüsü ilə yaradılan *Ümumdünya İslam Konfransı* da İKT-nin yaranmasında vasitəçi olmuşdur (16).

İкinci dünya müharibəsindən sonra islam birləşdirici hərəкatının mərкəzi müəyyən müddət yeni yaranmış müsəlman dövlətinə – Paкistana кöçürüldü. 1951-ci ildə Kəraçi şəhərində кeçirilən ÜİK-in növbəti sessiyasında 32 müsəlman ölкəsindən və müsəlman cəmiyyətindən nümayəndələr iştiraк etdi. Sessiyada ÜİK-in Nizamnaməsi təsdiq edildi. Konqresin rəhbər orqanı – hər il Həcc ziyarətindən sonra iclası кeçirən və Baş кatibliyi təyin edən Ali Şura oldu. O, İslam tarixi, fəlsəfə və bu кimi sahələrdə elmi tədqiqatların aparılmasına rəhbərliк edir. ÜİK-in fəallığının artması "Müsəlman dünyası" adlı aylıq jurnalın nəşrinə və bir neçə dildə "İslamın səsi" radio proqramların yayımlanmasının təşкilinə səbəb oldu.

ÜİK bir neçə nüfuzlu müsəlman dini cərəyanları tərəfindən fəal müqavimətlə rastlaşdı. Onların arasında Ümumdünya İslam Konqresini Paкistan, Misir, İndoneziya millətçi rejimlərinin xüsusi maraqlarını ifadə edən, "müsəlman ümmətinin ideallarını zəbt etmiş" təşкilat кimi görən "Müsəlman qardaşlığı" ittifaqı daha fəal idi (9, 156). Qruplaşma nəticəsində yeni beynəlxalq кonqres çağırıldı.

1953-cü ildə İordaniya кralının təşəbbüsü ilə 15 ölкənin nümayən-

dələrinin iştirakı ilə *Yerusəlim Üçün Ümumdünya İslam Konqresi* (YÜİK) yaradılır. Bu təşkilatın əsas məqsədi Fələstin probleminin həll olunmasına yönəldi.

Səudiyyə Ərəbistanı kralının təşəbbüsü ilə 1962-ci ildə Məkkədə Ümumi islam konfransı keçirildi. Konfransda əksəriyyətini islam təriqət və məzhəblərinin üləmaları təşkil edən 32 ölkədən nümayəndələr iştirak edirdi. Konfransın yekunu olaraq *İslam Dünyası Liqası* – beynəlxalq qeyri-hökumət islam təşkilatı yaradıldı. Liqa müsəlmanları dinlərindən ayırmağa və onların həmrəyliyini dağıtmağa yönəlmiş İslam düşmənlərinə qarşı mübarizə aparmalıdır. Liqanın yaranması ilə aparıcı mövqeyi onun maliyyə donoru olan Səudiyyə Ərəbistanı öz əlinə alır (Liqanın 1962-ci il büdcəsi 1 milyon Səudiyyə rialına, 1975-ci ildə 46 milyon, hazırda isə 100 milyon riala çatır) və onun siyasi mövqeyini əks etdirir. Rəhbər orqan olan Şuraya Baş katib başçılıq edirdi. Məqsədi islam dövlətləri arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın tənzimləməsi, ruhaniliyin cəmiyyətə təsirinin gücləndirilməsi, islam prinsiplərinin müsəlman dövlətlərinin konstitusiyalarına tətbiq edilməsi olan Liqa təsis sənədlərində dini və mədəni-maarif istiqamətli beynəlxalq sünni təşkilatı kimi xarakterizə olunurdu. Əsas diqqət İslam dininin yayılması, məscidlərin tikilməsi və Məkkəyə ziyarətlərin təşkilinə yönəlib. Liqa fəaliyyətində dəfələrlə ibadət və mədəni-maarif tədbirlərindən kənara çıxaraq siyasi aksiyalarda iştirak edirdi. Məsələn, Birinci Çeçen müharibəsi zamanı o müharibə əleyhinə kampaniya təşkil etmişdi. Liqanın Baş katibliyi Səudiyyə Ərəbistanının şeyxi Abd al-Əziz ibn Abdullah ibn Bazın "təcavüzə qarşı çeçen xalqına kömək üçün" ianə yığılması barədə dünya müsəlmanlarına müraciətini dəstəkləmişdi.

Liqa ənənəvi İslam ölkələri olmayan dövlətlərdə də bürolar yaradaraq öz iştirakını və təsirini genişləndirməyə can atır. Onların fəaliyyətini idarə etmək üçün regional islam şuraları yaradılmışdı:

Avropa – 1973, qərargahı – London (Avropa İslam Şurasının əsas fəaliyyəti İslam tarixi problemlərinə və aktual siyasi məsələlərə dair konfranslar təşkil etməyə, həmçinin bunların nəşrlərinə yönəlmişdir);

Afrika – 1976, qərargahı – Dəkkə;

Şimali və Cənubi Amerika, Karib dənizi hövzəsi – 1970, qərargahı – Nyu-York;

Asiya – 1978, qərargahı – Karaçi.

Liqa uzun müddət ÜİK, YÜİK və 1965-ci ildə yaradılmış Afrika–Asiya İslam Təşkilatı kimi digər beynəlxalq islam qeyri-hökumət təşkilatlarının fəaliyyətinə nəzarəti ələ almağa səy göstərmişdir. Bu məqsədlə Liqanın himayəsi ilə 1964-cü ildə ÜİK və YÜİK ilə fəaliyyət sferasının bölüşdürülməsi barədə saziş əldə olunmuşdu. Sazişə əsasən mənəvi və mədəni-maarif xarakterli bütün məsələlər ÜİK-ə keçirdi, YÜİK isə fəaliyyətini Fələstin probleminin həllində cəmləşdirməli idi. Lakin bu cəhdlər nəticə vermədi, nəzarət zəiflədi, ÜİK islam qeyri-hökumət təşkilatları arasında aparıcı rol iddiasından imtina etdi (3; 14).

Əgər İKT dövlətlər birliyidirsə, ondan fərqli olaraq Liqa müsəlmanların azlıq təşkil etdiyi və buna görə də, İKT-yə üzv olmayan müsəlman icmaları ilə işləyir (13). Bununla yanaşı, 1964-cü ildə Cakartada yaranan *Afrika–Asiya İslam Təşkilatının* da əsas məqsədi bütün müsəlman təşkilatlarını birləşdirməkdən ibarətdir.

Bütün yuxarıda sadalanan faktlar və təhlil olunan hadisələr onu

göstərir ki, XX əsrin I yarısında İslam dininin bir təşkilat kimi beynəlxalq strukturunun yaradılmasında əməli olaraq mühüm addımlar atılmışdır.

## QEYDLƏR


1. Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-2000-ci illər). İ kitab (Uzaq, Cənub-Şərq, Cənubi və Mərkəzi Asiya ölkələri). Bakı: 2001.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İttifaqi-Müslimin. s.66-68; İttihad. s.68-70; İttihad və tərəqqi. s.71; İslamçılıq. s.58; Panislamizm. s.282; Ümumrusiya müsəlmanları ittifaqı. s.419-420 məqalələri. İİ cild. Bakı: Lider, 2005.
3. İslam. Qısa məlumat kitabı. Bakı: Azərbaycan Ensiklopediyası nəşriyyatı, 1989.
4. Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М.: 2003.
5. Бжезинский З. Выбор: мировое господство или глобальное лидерство. М.: 2004.
6. Донцов В.Е. Ислам в международных отношениях //Дипломатический Ежегодник. 1997. М.: Научная книга, 1997.
7. Ислам в странах Ближнего и Среднего Востока. М.: 1982.
8. Ислам и проблемы национализма в странах Ближнего и Среднего Востока (конец 70-х - начало 80-х годов XX в.). М.: 1986.
9. Поляков К. И. Арабский Восток и Россия: проблемы исламского фундаментализма. М.: 2001.
10. Системная история международных отношений. В 4.т. 1918-2003. т.3. События. 1945-2003. Под ред. А.Д.Богатунова. М.: 2003.
11. Токарев С., Религия в истории народов мира. М.: 1986.
12. Жданов Н.В. Исламизм глобальная угроза? // http://www.nİİss.ru/s_docl_zdanov2.shtml.
13. Игнатенко А. Куда идет исламский мир // http://www.İ-r-p.ru/page/stream-event/İndex-6200.html.
14. Ковальчук А. Международные исламские организации. Журнал "Отечественные записки". Тема номера: Ислам и Россия. № 5 (14), 2003. // http://www.strana-oz.ru/?numİd=14&artİcle=664.
15. Морозов Е. Мировая война ислама. // Русский Гуманитарный Интернет-Университет. 2002 // http://www.İ-u.ru/bİblİo/archİve/morozov_the_world_İslam_war.
16. Хасанов Р. Организация Исламской Конференции и мусульманские государства СНГ. // http://www.ca-c.org/journal/11-1997/st_03_hasanov.shtml.


## ДЕЯТЕЛЬНОСТЬ ПО СОЗДАНИЮ МЕЖДУНАРОДНЫХ ИСЛАМСКИХ ОРГАНИЗАЦИЙ


С.З.КУЛИЕВА


## РЕЗЮМЕ


В начале XX века, в результате начавшейся "мусульманской реформации" формируется международное исламское движение, основанное на концепции исламской солидарности.

В этот период повсеместно решается проблема по выбору путей развития, освободившихся от колониализма, стран.

В статье указаны пути решения придания исламской религии статуса международ-

ной организации и формирования международных исламских организаций, таких как: Конгресс мусульманского мира (1926), Всеобщий исламский конгресс для Иерусалима (1953), Лига Исламского Мира (1962), Организация Исламской Конференции (1969).

## FORMATIONAL ACTIVITIES OF THE INTERNATIONAL ISLAMIC ORGANIZATIONS

**S.Z.QULIYEVA**

**SUMMARY**

At the beginning of XX century in the result of the starting "Muslim reformation" there was formed an international movement founded on the conception of Islamic solidarity is formed.

In this period the problem of searching the ways of development of muslim countries liberated from the colonization was being solved everywhere.

The article shows the ways of solution granting the islamic religion a status of international organizations and formation international Islamic organizations, such as The congress of the Muslim world (1926), The general islamic congress for Jerusalem (1953), League of the Islamic world (1962), The Organization of Islamic Conference (1969).